# BAKI DÖVLƏT UNİVERSİTETİ

---

2022-ci ildə _____Fəlsəfə______________________________________________________
kafedrasında (şöbəsində, ETİ, ETM, ETL-də) elmi plan üzrə yerinə yetirilmiş elmi-tədqiqat işlərinin nəticələrinin

## HESABATI

**Mövzunun adı:** Müasir dövrdə təbiətdə və cəmiyyətdə gedən proseslərin ictimai şüurda inikası

**Mövzu rəhbərinin soyadı, adı və atasının adı:** Pənahova Kəmalə Həsən qızı

**Mövzunun icra müddəti (başlama və bitmə tarixi):** 01 yanvar 2022-ci il - 31 dekabr 2022-ci il

**B a k ı - 2022**

## Mövzu üzrə icraçılar haqqında məlumat (icraçılar, birinci mövzu rəhbər yazılmaqla):

| S/S | Soyadı, adı, atasının adı | Təvəllüdü | Vəzifəsi | Ştat vahidi | Elmi adı və elmi dərəcəsi dərəcəsi | Ştat vahidləri üçün ikinci iş yeri, yarımştatlar üçün əsas iş yeri |
|---|---|---|---|---|---|---|
| 1. | Pənahova Kəmalə Həsən qızı | 22.09.1962 | Kafedra müdiri | 0.5 | Dosent, fəlsəfə üzrə fəlsəfə doktoru | |
| 2. | Məmmədov Əziz Bəşir oğlu | 20.12.1938 | Müəllim | 1 | Professor, fəlsəfə elmləri doktoru | |
| 3. | Hacıyev Zeynəddin Camal oğlu | 01.07.1941 | Müəllim | 1 | Professor, fəlsəfə elmləri doktoru | |
| 4. | Əfəndiyev Fikrət Məmməd oğlu | 08.04.1943 | Müəllim | 1 | Professor, fəlsəfə elmləri doktoru | |
| 5. | Tağıyev Arif İslam oğlu | 25.05.1940 | Müəllim | 1 | Dosent, fəlsəfə üzrə fəlsəfə doktoru | |
| 6. | Namazova Aybala Firudin qızı | 25.04.1952 | Müəllim | 1 | Dosent, fəlsəfə üzrə | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | | | | fəlsəfə doktoru | |
| 7. | Əlizadə Bilal Xudabaxış oğlu | 01.09.1958 | Müəllim | 1 | Dosent, fəlsəfə üzrə fəlsəfə doktoru | |
| 8. | Məmmədov Hüseyn Qaraxan oğlu | 04.08.1959 | Müəllim | 1 | Dosent, fəlsəfə üzrə fəlsəfə doktoru | |
| 9. | İslamov İslam Əhmədağa oğlu | 25.01.1963 | Müəllim | 1 | Dosent, fəlsəfə üzrə fəlsəfə doktoru | |
| 10. | Mikayılova Nərminə Eldar qızı | 12.01.1959 | Müəllim | 1 | Dosent, fəlsəfə üzrə fəlsəfə doktoru | |
| 11. | Yusifova Gülnarə Yusif qızı | 15.11.1965 | Baş müəllim | 1 | Fəlsəfə üzrə fəlsəfə doktoru | |
| 12. | Allahverdiyev Azər Muxtar oğlu | 21.03.1958 | Baş müəllim | 1 | - | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 13. | Məcidova Nərgiz Həmid qızı | 12.08.1968 | Müəllim | 1 | Dosent, Fəlsəfə üzrə fəlsəfə doktoru | |
| 14. | Kərimova Nəzakət İsfəndiyar qızı | 01.01.1972 | Müəllim | 0,5 | Fəlsəfə üzrə fəlsəfə doktoru | Sosial elmlər və psixologiya fakültəsinin təlim-tərbiyə işləri üzrə dekan müavini |
| 15. | Hüseynli Oqtay Hüseyn oğlu | 20.07.1972 | Müəllim | 0,5 | Fəlsəfə üzrə fəlsəfə doktoru | |
| 16. | Hüseynov Elmar Nəbi oğlu | 16.03.1983 | Müəllim | 1 | - | |
| 17. | Xəlilqızı Aygün Xəlil qızı | 02.10.1976 | Müəllim | 0,5 | Fəlsəfə üzrə fəlsəfə doktoru | |

**Mövzu və mövzu üzrə cari ildə yerinə yetirilmiş elmi işlər**

*Plan üzrə hər bir mövzunun, hər bir elmi tədqiqat işinin aktuallığı,məqsədi və alınmış elmi nəticələr ayrılıqda göstərilməli, ad soyad tam yazılmalıdır.*

**Mövzunun adı:** Müasir dövrdə təbiətdə və cəmiyyətdə gedən proseslərin ictimai şüurda inikası

**Mövzunun aktuallığı və məqsədi:** Cəmiyyətin bütün həyat fəaliyyəti sferalarını əhatə edən müasir inteqrasiya prosesləri ictimai şüurun yeni konkret-tarixi növünün-qlobal ümumbəşəri şüurun yaranması tendensiyasını şərtləndirir. Müasir mərhələdə informasiya cəmiyyətinin inkişafı nəticəsində siyasi, iqtisadi, mədəni və antropoloji səviyyələrdə dərin struktur dəyişiklikləri baş verir. Cəmiyyət və təbiətin qarşılıqlı təsirinin ictimai şüura təsiri onda bəzi funksional və struktur dəyişmələri müəyyən edən vacib müəyyənedici amil kimi şıxış edir. Tədqiq olunan mövzunun aktuallığı müasir cəmiyyətdə, xüsusilə, iqtisadi, siyasi, mənəvi sferada insanların inteqrativ fəaliyyətinin artması ilə əlaqədar olaraq baş verən dəyişikliklərlə şərtlənir. İctimai şüurda baş verən sürətli dəyişikliklər cəmiyyətin və

təbiətin öyrənilməsinə yeni, mütərəqqi yanaşmalarla əlaqədardır. Bu aktual və müasir problemlərin adekvat fəlsəfi izahı isə həm də elmin inkişafı üçün vacib əhəmiyyət kəsb edir. İctimai şüurun dinamikasının əsas cəhətlərinin dərki informasiya və biliklərin istehlak mədəniyyətini artırmağa imkan verir, onların sosial tərəqqiyə pozitiv təsirin təmin edilməsinə şərait yaradır. Mövzunun məqsədi müasir dövrdə təbiətdə baş verən proseslərin və müasir cəmiyyətin inkişaf istiqamətlərinin ictimai şüurda inikasını təhlil etməkdir.

**Elmi tədqiqat işi 1.** “Adi şüur səviyyəsində mistika”.

**Elmi tədqiqat işi üzrə çalışan əməkdaş:** f.ü.f.d., dos. Kəmalə Pənahova.

Elmi tədqiqat işində adi şüurla və mistik şüurun qarşılıqlı münasibəti təhlil olunur. Adi şüura yalnız bilik komponenti aid deyildir. Gündəlik həyata məxsus olan emosiyalar, ehtiraslar, sevinc, sakitlik, qəzəb, qorxu, kədər, təəccüb, heyrət kimi hisslər də məxsusdur. Normalar, dəyərlər, çağırışlar və qadağalar adi şüurun insan fəaliyyətinə xidmət edən vasitələridir. Bütün dövrlərdə adi şüur ictimai şüurun müxtəlif formalarının inkişafı üçün mənbə və mənəvi qida rolunu oynamışdır.
Mistika, mifologiya və dinin mənşəyi arxaik bütöv adi şüurdur.. Belə ki, adi şüura əxlaqi normalar, empirik bilik kimi müsbət rasional xüsusiyyətlərlə bərabər kortəbiilik, qeyri-sistemlilik, kor-koranə inama söykənmə, aqressivlik kimi mənfi xüsusiyyətlər də aid edilir. Adi şüurda rasional təsəvvürlərlə bərabər illuziya, müxtəlif mövhumatlar, xurafatlardan ibarət olan irrasional baxışlar, təsəvvürlər birlikdə mövcüd olur. Mistik şüur şüurun xüsusi halıdır. Adi şüurdan onu psixikanın intellektual-sensor sferasının yoxluğu fərqləndirir. Bu elə bir şüurdur ki, onda xarici, insanı əhatə edən aləm deyil, insanın daxili, dərin qatları əks olunur. Mistik şüurda obyektiv reallığın qavranılmasının sensor kanalları kəsilir, təhlil edən təfəkkür mövcud olmur. Bu vəziyyət mistiklər tərəfindən boşluq, nirvana kimi anlayışlarla ifadə olunur. Burada hansısa vahid, differensə olunmamış, məkan və zamandan kənar Reallıq mövcud olur. Həmin vəziyyət başqa, adidən fərqli səviyyədə mövcud olma hissini doğurur.
**Aktuallığı:** Problem kifayət qədər araşdırılmayıbdır. Rasional və mistik dərketmə insanın idraki fəaliyyətinin müxtəlif üsulları kimi çıxış etsələr də hər ikisi dünyanın ümumi mənzərəsinin yaradılmasında, insanın mənəvi aləminin anlaşılmasında mühüm rol oynadığı üçün mistik şüurun xüsusiyyətlərinin və onun adi şüurla qarşılıqlı münasibətinin araşdırılması əhəmiyyət kəsb edir.
**Məqsədi:** Adi şüurun sosial-fəlsəfi təhlilini vermək və mistik şüurun spesifikliyini və idrakda funksional imkanlarını üzə çıxarmaqdır.
**Alınmış nəticələr:** Hər bir cəmiyyətdə sosial, iqtisadi, siyasi dəyişikliklər dövründə onun mənəvi həyatında adi şüurun aktivliyi xüsusilə artır. Bu zaman hətta ictimai şüurun formaları adi şüurun təzyiqinə məruz qalır. Okkultizm, magiya, spiritizm, astrologiya tərəfindən elmə təsir edilə bildiyi zamanlar belə olur. Müxtəlif cəmiyyətlərin böhran dövrlərində adi şüurun aktivləşməsi müşahidə olunur. Bəzi tədqiqatçıların irəli sürdüyü kimi adi şüur xaotok xarakter daşımır. Adi şüur sistemli xarakterə də malikdir. Adi şüururda koqnitiv, emosional, iradi komponentlər vəhdət təşkil edir. Adi şüur sarkal olanı həmişə təxmin edir. Ancaq ona görə yox ki, o dini xarakter daşıyır, əksinə, adi şüurun sarkallığı müəyyən vəziyyətlərdə fövqəltəbii olana inam və ya din formasında ifadə oluna bilər. Mistik şüurun əsasında fiziki və zahiri dünyanın, yəni gündəlik rellıqların hüdudlarına çıxmaq və həyatın sirlərinə bələd olmaq cəhdi durur. Mistiklər hesab edirlər ki. bizim dünya haqqında biliklərimiz xəyalidir, onun arxasında gizli ali bir reallıq vardır. Mistisizmə görə mistik həyəcanlar vasitəsilə ali reallığın mistikin üzünə açılması mümkündür.

**Elmi tədqiqat işi 2.** "İctimai şüur sistemində rasional əməliyyatlar və onların məntiqi-qnoseoloji obrazı".
**Elmi tədqiqat işi üzrə çalışan əməkdaş:** f.e.d., prof. Əziz Məmmədov.
Dünyanın sistemli və mürəkkəb səciyyə daşıyan, dərk edilməsi prosesi müəyyən əməliyyatlar formasında həyata keçirilir. Bu əməliyyatları rasional və qeyri-rasional əməliyyatlara bölmək olar. Son illərin fəlsəfi ədəbiyyatında belə bir baxış özünə möhkəm yer almışdır ki, idrakın inkişafı bir qayda olaraq təsvirdən izahata doğru istiqamətlənir. Fikrimizcə, bu qanunauyğunluq elmi idrakın çıxış prinsiplərindən biri olub, elmi idrak üsulu və rasional əməliyyatlar olmaq etibarilə izahat və təsvirin təbiətinin müvəffəqiyyətli tədqiqi üçün əlverişli imkanlar yaradır.
Təsvir idrakda özünün metodoloji funksiyalarını yerinə yetirdikdən sonra yerini izahata və anlamaya verir. İzahat elmi nəzəriyyənin və bütövlükdə elmin mühüm funksiyalarından biridir. İzahat və anlamaya, adətən, üst-üstə düşən və yaxud kəsişən proseslər kimi baxırlar. Halbuki, XIX əsrin ikinci yarısı və XX əsrdə insan idrakının sistemli təhlili bu proseslərin ciddi keyfiyyət fərqini aşkara çıxararaq onların elmi idrakda müxtəlif funksiyalar yerinə yetirdiklərini sübut etmişdir.
**Aktuallığı:** İctimai şüur insanların əməli fəaliyyətində istinad etdikləri və rəhbər tutduqları ictimai ideya və nəzəriyyələrin, siyasi, elmi, hüquqi, fəlsəfi, dini, əxlaqi, bədii baxışların, ictimai hiss, psixoloji, vərdiş və mənəvi keyfiyyətlərin məcmusu olduğu üçün bu mövzunun tədqiqi bütün dövrlərdə mühüm aktuallıq kəsb edir.
**Məqsədi:** Elmi tədqiqatlarda aparıcı rol oynayan rasional əməliyyatlardan elmi təsvirin, izahetmənin və anlamanın sistem-struktur təhlilini reallaşdırmaq, məntiqi-qnoseoloji mahiyyətini araşdırmaq.
**Alınmış nəticələr:** Beləliklə, insanın yaradıcı fəaliyyətinin zəruri şərtlərindən biri kimi çıxış edən anlama probleminin həlli konkret müxtəlif tədqiqat vasitələri tələb edən kompleks problemdir.

**Elmi tədqiqat işi 3**. "İctimai psixologiyanın ictimai ideologiya ilə münasibəti".
**Elmi tədqiqat işi üzrə çalışan əməkdaş:** f.e.d., prof. Zeynəddin Hacıyev.
Elmi işdə öncə qeyd olunur ki, sözügedən iki xarakteri və inkişaf səviyyəsinə uyğun olaraq baş verir. Bununla əlaqədar vurğulanır ki, "Milli müstəqillik dövrü"ndə ictimai psixologiya ilə ideologiyanın qarşılıqlı təsiri yeni sosial zəmin üzərində qərarlaşır.İctimai həyatın bütün sahələrində baş verən əsaslı dəyişikliklər insanların təhsili və mədəniyyətşünaslığın yüksəlməsi ilə birlikdə çıxış edir.
Müasir cəmiyyətdə ictimai psixologiya ilə ideologiyanın qarşılıqlı əlaqəsi və vəhdəti möhkəmlənir. Onlar bir –birini tamamlayır və zənginləşdirirlər.
**Aktuallığı:** Ümumilikdə bu problem yetərincə araşdırılmayıb. Digər tərəfədn müasir cəmiyyətimizdə ictimai psixologiya və ideologiyanın qarşılıqlı təsirdə əmələ gələn yenilikləritəhlil edib ümumiləşdirmək zəruridir.

**Məqsədi:** Milli müstəqillik dövründə ictimai psixologiya ilə ideologiyanın qarşılıqlı əlaqələrini təhlil etmək.
**Alınmış nəticələr:** İctimai psixologiya ilə ideologiyanın qarşılıqlı təsiri və vəhdətinin möhkəmlənməsi, onların bir-birini tamamlaması və zənginləşdirməsi elmi cəhətdən sübut edilmişdir.

**Elmi tədqiqat işi 4.** “Müasir elmi fikirdə elementarlıq anlayışının əhəmiyyəti”.
**Elmi tədqiqat işi üzrə çalışan əməkdaş:** f.e.d., prof. Fikrət Əfəndiyev.
Hal-hazırda “dünyanın elmi mənzərəsi” anlayışının, məsələn “dünyanın fiziki mənzərəsi” kimi daha xüsusi anlayışlarla əlaqəsinin az və ya çox birmənalı və ümumi qəbul edilmiş tərifi yoxdur. Ancaq bu və ya digər şəkildə demək olar ki, dünyanın elmi mənzərəsi elmi biliyin konkret tarixi materialında reallığı əks etdirən konkret formada biliyin sistemləşdirilməsinin müəyyən formasıdır. “Dünyanın elmi mənzərəsi” ilə nəzəriyyələrin elementar obyektləri arasındakı əsas əlaqə onu göstərir ki, elementar obyektlər tədqiq olunan sahədə bütün hadisələrin nəzəri modellərini qurmaq üçün nəzəriyyənin ilkin obrazlarıdır. Gerçəkliyin əsasının mahiyyətlərinin obrazları kimi metodoloji əhəmiyyət həm də idrakın nəzəri və praktiki fəaliyyət strategiyasının funksiyası kimi çıxış edərək bütün idrak fəaliyyətinin proqramı üçün əsas rolunu oynayır.
**Aktuallığı:** “Dünyanın elmi mənzərəsi” ilə nəzəriyyələrin elementar obyektləri arasındakı əsas əlaqə onu göstərir ki, elementar obyektlər tədqiq olunan sahədə bütün hadisələrin nəzəri modellərini qurmaq üçün nəzəriyyənin ilkin obrazlarıdır.
**Məqsədi:** Elmi biliyin konkret tarixi materialında reallığı əks etdirən konkret formada biliyin sistemləşdirilməsi.
**Alınmış nəticələr:** Gerçəkliyin əsasının mahiyyətlərinin obrazları kimi metodoloji əhəmiyyət həm də idrakın nəzəri və praktiki fəaliyyət strategiyasının funksiyası kimi çıxış edərək bütün idrak fəaliyyətinin proqramı üçün əsas rolunu oynayır.

**Elmi tədqiqat işi 5.** “Müasir təbiətşünaslıqda təbii-elmi və əxlaqi yanaşmaların əlaqəsi (metodoloji təhlil)”.
**Elmi tədqiqat işi üzrə çalışan əməkdaş:** f.ü.f.d., dos. Arif Tağıyev.
Mövzu insan-dünya münasibətləri prinsipindən çıxış edilərək araşdırılır. İnsan özünün əxlaqi və intellektual ənənəvi dünyası ilə birlikdə təbiətin ayrılmaz tərkib hissəsi kimi araşdırılır. İnsan şəxsiyyətinin bənzərsiz əxlaqi davranışlarının təbii motivləri, təbii-elmi determinantı arasında qırılmaz bağlılığına, vəhdətinə xüsusi diqqət yetirilir. Göstərilir ki, insan biososial varlıqdır, onun mənəvi-əxlaqi özəllikləri isə onun varlığının sosial səpkisinə aiddir və insanın təbii-bioloji hərəkətlərinin, tələbatlarının tənzimləyici əsası yaxud motivi kimi çıxış edir. İnsan təbiətinə belə yanaşma onun davranışlarında əxlaqa zidd, yəni qeyri-əxlaqi hərəkətlər – yalançılıq, tamahkarlıq, azğınlıq,harınlıq, hakimiyyət və sərvət hərisliyi və bu əsasda törətdiyi cinayətləri heç də onun təbii-bioloji həyatı ilə deyil, sosial varlığı ilə bağlıdır. O da vurğulanır ki, insanın etik-əxlaqi özəlliklərinin biogenetik əsasları problem olaraq qalır.

| | |
|---|---|
| | **Aktuallığı:** İnsan təbiəti, onun bioloji, təbii və sosial-psixoloji səpkiləri bütün dövrlərdə fəlsəfi düşüncənin mərkəz problemlərindən biri olmuş və olmaqdadır. Bu problemə dair həyata keçirilən hər bir araşdırma həm fəlsəfi, həm də elmi dünyagörüşün formalaşdırılması baxımından özəlliklə də ideoloji mübarizə üçün indiki zamanda daha aktualdır.<br>**Məqsədi:** Mövzunun işlənməsində məqsəd bir tərəfdən, elmi fəlsəfənin, ictimai həyatda baş verən ciddi siyasi və iqtisadi dəyişikliklər zəminində inkişaf edən dünyagörüşünün daxili-məntiqi tələbini ödəmək, digər tərəfdən araşdırmanın gedişində əldə edilmiş yeni nəticələrin praktiki fəaliyyətdə, təhsil prosesində istifadə olunmasını tövsiyə etməkdir.<br>**Alınmış nəticələr:** Mövzu üzərində gerçəkləşdirilmiş araşdırmanın gedişində alınmış nəticələrə, birincisi, insan həyatının, hərəkətinin hər anı Kosmik qanunun nümayişi kimi müəyyənləşdirilir və qeyd edilir ki, bizim varlığımızın bir anı mümkün olan bütün zamanları özünə daxil edir; ikincisi, həyatın hər anına məsuliyyətli, başqa sözlə, əxlaqi məsuliyyətli və yaradıcı münasibət mənəvi varlığın dolğunluğunun aşkar meyarı kimi aşkar edilir və nəticə çıxarılır: bu meyardan kənarda qalan fərd insani dəyərin daşıyıcısı ola bilməz; üçüncüsü, insanın biopsixososial təbiəti onun varlığının kosmik qanununun subyektidir.<br><br>**Elmi tədqiqat işi 6.** “Siyasi şüurun sosial-fəlsəfi təhlili”.<br>**Elmi tədqiqat işi üzrə çalışan əməkdaş:** f.ü.f.d., dos. Aybala Namazova.<br>Elmi-tədqiqat işi “Siyasi şüurun sosial-fəlsəfi təhlili”nin üç il üçün nəzərdə tutulmuş elmi-tədqiqat işinin tərkib hissəsidir. Qeyd olunan mövzu çərçivəsində müəllif əsas diqqəti siyasi şüura yönləndirmişdir. Bu, fərdi subyektin siyasət və siyasi proses haqqında öz düşüncəsini ifadə etdiyi psixi hadisələrin məcmusudur. Ənənəvi marksist anlayışda siyasi şüur, ilk növbədə, insanların mövcudluğunun sosial-iqtisadi şəraitinin əksi kimi yaranan ictimai şüurun variantı kimi şərh olunur.<br>**Aktuallığı:** Tədqiqat mövzusunun aktuallığı onunla əlaqədardır ki, köklü transformasiyalar və qlobal sosial-mədəni dəyişikliklər zamanı müasir cəmiyyətdə ictimai inkişafın forma və yollarının axtarışı cəmiyyətdə insanlar arasında qarşılıqlı əlaqəni dərin və hərtərəfli sosial-fəlsəfi dərk etmədən mümkün deyildir. Siyasi şüurun tədqiqi onun ənənələrə və stereotiplərə əsaslanması ilə əlaqədar xüsusi aktuallıq kəsb edir.<br>**Məqsədi:** Bu tədqiqatın məqsədi müasir şəraitdə siyasi şüurun formalaşması və fəaliyyətinin ən mühüm aspektlərini müəyyən etməkdir. Bu məqsədə çatmaq üçün işdə aşağıdakı vəzifələr həll olunur:<br>- siyasi şüur anlayışının sosial-fəlsəfi xüsusiyyətlərini təhlil etmək; siyasi şüurun mahiyyətini, onun formalaşmasına kömək edən prosesləri və hadisələri aydınlaşdırmaq;<br>- müasirlik və postmodernliyin sosial-siyasi tiplərinin dixotomiyasında siyasi şüurun transformasiya istiqamətlərini müəyyən etmək.<br>**Alınmış nəticələr:** Tədqiqatın nəticələrinə yekun vuraraq, siyasi şüurun öyrənilməsində çox aktual və mürəkkəb, çoxşaxəli və |

mübahisəli problemlərin əhatəli sosial-fəlsəfi təhlilini ümumiləşdirən bir sıra nəticələr çıxara bilərik. Biz müasir sivilizasiyanın böhran hadisələrini nəzərə almaqla müasir cəmiyyətdə siyasi şüurun fəaliyyətinin öyrənilməsini perspektivli hesab edirik.

**Elmi tədqiqat işi 7.** "Ekoloji problem və onun nəticələrinin sosial fəlsəfi təhlili".
**Elmi tədqiqat işi üzrə çalışan əməkdaş:** f.ü.f.d., dos. Bilal Əlizadə.
Təqdim edilən elmi –tədqiqat işi müasir dövrün qlobal problemlərindən biri – ekoloji problemin nəticələrinin sosial fəlsəfi təhlilinə həsr olunmuşdur. Elmi –tədqiqat işində qlobal problem kimi ekoloji böhranın yaranması, onun təbiət-cəmiyyət münasibətlərinə təsirinin çox mühüm mənfi nəticələri və onları aradan qaldırmaq üçün həll yolları tədqiq olunur. Qlobal problem kimi ekoloji problemin nəticələri cəmiyyətə və insana mənfi təsir göstərir, bir sıra xəstəliklərin yaranmasına gətirib çıxarır. Müəllif məqalədə, A.Şükürov, Y.Türkel və başqa filosofların elmi risinə müraciət etmişdir.
**Aktuallığı:**, Qlobal problem kimi ekoloji problemlərin insana, cəmiyyətə qarşı mənfi nəticələrinə diqqət çəkməkdir.
**Məqsədi:** Qlobal problem kimi ekoloji problemin nəticələrini aradan qaldırmaq üçün bir sıra təkliflər irəli sürmək.
**Alınmış nəticələr:** Ekoloji problemin nəticələrinin aradan qaldırılmasının insan üçün, cəmiyyət üçün nə kimi sosial əhəmiyyət daşıdığını diqqətə çatdırmaqdır.

**Elmi tədqiqat işi 8.** "Hüquqi şüur və hüquqi aksiologiya".
**Elmi tədqiqat işi üzrə çalışan əməkdaş:** f.ü.f.d., dos. Hüseyn Məmmədov.
Hüquqi şüurun antik dövrdən başlanmış müasir dövrədək inkişaf tarixinə nəzər salınmış və hüquqi şüurun əqli, qiymətləndirici, iradəvi ünsürlərdən ibarət olduğu qeyd olunmuşdur. Daha sonra hüquqi şüurun xüsusiyyətləri və funksiyaları göstərilmişdir.
Elmi işin ikinci hissəsində isə hüquqi aksiologiyanın təhlili verilmişdir. Hüquqi aksiologiyanın predmet sahəsi, hüququn və qanunun nisbəti və fərqi təbii-hüquqi baxışların meydana çıxması, təbii hüququn pozitiv hüquqdan fərqləndirilməsi ilə bağlı olduğu qeyd olunur. Təbii-hüquqi aksiologiya ilə liberal-aksiologiyanın mahiyyəti, fərqləri geniş işıqlandırılmışdır.
Sonda isə hüquqi aksiologiyanın hüquqi problemlərində həllində əhəmiyyəti nəzərə çatdırılır.
**Aktuallığı:** Cəmiyyətdə gedən dəyişikliklər və transformasiya prosesləri daim hüquqi şüurda öz əksini tapdığı üçün hüquqi şüurun daim tədqiq edilməyə ehtiyacı vardır.
**Məqsədi:** Hüquqi şüurun anlamı və tipologiyasını təhlil etmək.
**Alınmış nəticələr:** Hüquqi şüur və hüquqi aksiologiyanın oxşar və fərqli cəhətləri mövcuddur. Hüquqi aksiologiya şüurdan fərqli olaraq insanın hüquq sahəsindəki dəyərlərini ifadə edir. Və bu da öz ifadəsini qarşılıqlı olaraq hüquqi şüurda tapır.

**Elmi tədqiqat işi 9.** “Dini və əxlaqi şüurun qarşılıqlı əlaqəsi”.

**Elmi tədqiqat işi üzrə çalışan əməkdaş:** f.ü.f.d., dos. İslam İslamov.

Əxlaqi şüur ictimai şüurun bir forması olmaq etibarilə cəmiyyətin sosial həyatında müstəsna əhəmiyyətə malikdir. İctimai şüur - cəmiyyətin mənəvi istehsalının böyük bir hissəsini təşkil etməklə ictimai varlığın inikasıdır. İctimai şüur təbiətin,eləcə də sosial reallığın hadisələrini təbii və süni dildə,bəşəriyyətin yaratmış olduğu sosial norma və baxışlarda əks etdirir. Elmi tədqiqatda din ilə əxlaqi şüurun qarşiliqli əlaqəsi normalar fonunda təhlil edilir. Belə ki, əxlaqi biliklər,əsasən,gündəlik həyati məsələlərinin həlli ilə bağlıdır. Burada rasional və hissi elementlər bir - biri ilə sıx qarşılıqlı əlaqədədir. Əxlaqi şüurun fəaliyyəti yalnız həqiqətin tapılmasına yönəlməmişdir; burada əsas məqsəd – davranış qaydalarını formulə etmək,həyati məqsədlərin,qərarın qəbul edilməsi və hərəkətin seçilməsidir. Din də, əxlaq da mədəniyyətin fenomenləridir və öz genezislərinə görə həm fərqli, həm də oxşar cəhətlərə malikdirlər. Onları fərqli cəhətlərindən biri davranış normalarının mənbəyi ilə bağlıdır: dində - Tanrı iradəsi; əxlaqda – vicdanın səsi. İkinci fərq bu normaların formulə olunduğu üsula görədir: dində - seçilmişlərə verilmiş vəhylərin təfsiri; əxlaqda – hər kəsin malik olduğu vicdan səsinin müstəqil dərki və ifadəsi. Üçüncü fərq özünü davranışın dəyərləndirilməsində göstərir: dində - İlahi mühakimə; əxlaqda – vicdan. Dini və əxlaqi normaların əsas oxşar cəhəti odur ki, onlar hamı tərəfindən qəbul olunmağa yönəlirlər və onları könüllü qəbul edənləri birləşdirirlər (dində - inananları; əxlaqda - əmin olanları).

**Aktuallığı:** Müasir dövrdə sosial normaların insanlarin öz təlabatlarina uygun dəyişildiyinə baxmayaraq, din və əxlaqin normaları daha stabildir.və onlar insanlarin daima adət -ənənələrində əks olunurlar .Buna görə də, bu mövzu özünün daima aktualligini qoruyub saxlayir

**Məqsədi:** Din də, əxlaq da mədəniyyətin fenomenləridir və öz genezislərinə görə həm fərqli, həm də oxşar cəhətlərini acib göstərməkdir

**Alınmış nəticələr:** Dini və əxlaqi normaların əsas oxşar cəhəti odur ki, onlar hamı tərəfindən qəbul olunmağa yönəlirlər və onları könüllü qəbul edənləri birləşdirirlər (dində - inananları; əxlaqda - əmin olanları). Onları fərqli cəhətlərindən biri davranış normalarının mənbəyi ilə bağlıdır: dində - Tanrı iradəsi; əxlaqda – vicdanın səsi. İkinci fərq bu normaların formul olunduğu üsula görədir: dində - seçilmişlərə verilmiş vəhylərin təfsiri; əxlaqda – hər kəsin malik olduğu vicdan səsinin müstəqil dərki və ifadəsi. Üçüncü fərq özünü davranışın dəyərləndirilməsində göstərir: dində - İlahi mühakimə; əxlaqda – vicdan

**Elmi tədqiqat işi 10.** “Estetik idealın ictimai təbiəti haqqında”.

**Elmi tədqiqat işi üzrə çalışan əməkdaş:** f.ü.f.d., dos. Nərminə Mikayılova.

Estetik idealda “insan-cəmiyyət” münasibətləri sisteminin kamilləşməsinin görüntüləri mövcuddur. O, insanın ifadəsi və idrak vasitəsilə cəmiyyətin dərk edilməsi və qiymətləndirilməsi vasitəsidir.

**Aktuallığı:** Öz ictimai təbiətinə görə çoxfunksiyalı olan estetik ideal tarixi inkişafın məqsədini əks etdirir, cəmiyyətin fəaliyyətinin rəhbər prinsipidir. Həyatın müxtəlif sahələrində mövcud olan disharmoniyanın praktikasının aradan qaldırılmasını müqayisə edən normadır.

Bunda istənilən fəaliyyətin əxlaqi aspekti təəzahür edir. Bu mövzunun aktuallığı kamilləşən və inkişaf edən cəmiyyət şəraitində daha da mühüm əhəmiyyət kəsb edir. Çünki bu ictimai münasibətlərin inkişafının əsas faktorlarından biri kimi nəzərə çarpır.

**Məqsədi:** Konkret cəmiyyətin sosial və siyasi məqsədlərinin reallaşması prosesində yaradıcı şüur qabiliyyəti, azad, mənəvi istehsal və mənəvi mədəniyyətin əlaqəsinin nəzərdən keçirilməsi.

**Alınmış nəticələr:** Yaradıcı fəaliyyət şəxsiyyətin sosial fəallığının meydana gəlməsinin ali formasıdır. Yaradıcı fəaliyyət şəxsiiyyətin sosial fəallığının təzahürünün ali forması, unikallığın, orijinallığın və novatorluğun təzahürüdür. Bu məqamları nəzərə almadan şəxsiyyətin sosial-etik idelaın formalaşmasına olan cəhdlərini anlamaq qeyri-mümkündür.

**Elmi tədqiqat işi 11.** "Əxlaqi və hüquqi şüurun mənayaradıcı ideyaları".

**Elmi tədqiqat işi üzrə çalışan əməkdaş:** f.ü.f.d., dos. Gülnarə Yusifova.

"Əxlaqi və hüquqi şüurun mənayaradıcı ideyaları" mövzusunda yazılmış elmi tədqiqat işi əxlaqi və hüquqi şüurun qarşılıqlı əlaqəsinin dialektikasının tədqiqinə yönəlmişdir. Əxlaqi və hüquqi şüurun mənayaradıcı ideyalarını izah edilərkən əvvəlcə onların strukturu və burada olan yönəlişlər, ideyalar tədqiq olunur. Ardınca əxlaqi və hüquqi şüurun ideyaları və onların tipləri göstərilir. Daha sonra mənayaradıcı ideyalar – ölçü, tabeçilik, müstəqillik, təminatlılıq, uzlaşma, həmrəylik, norma, qayda, geniş şəkildə işıqlandırılır.

Nəticədə əxlaqi və hüquqi şüurda məntiq və məntiqsizlik hərtərəfli təhlil olunur və bunları tədqiq etməyin əhəmiyyəti göstərilir.

**Aktuallığı:** Əxlaqi və hüquqi şüurun qarşılıqlı əlaqəsinin dialektikasını onların mənayaradıcı ideyaları; ölçü, təminatlılıq, tabeçilik, müstəqillik, uzlaşma, həmrəylik və norma ideyalarını izah etməklə yanaşı, qayda anlayışının mahiyyətini açmaq, habelə məntiqlik və məntiqsizlik əsasında araşdırmaq.

**Məqsədi:** Əxlaqi və hüquqi şüurun hər ikisi cəmiyyətdə insanların davranış norma və qaydaları ilə sıx bağlı olduğuna görə onların mənayaradıcı ideyalarını da birlikdə araşdırmağı məqsədi qarşıya qoyulmuşdur.

**Alınmış nəticələr:** İctimai dəyərlər əxlaq və hüquq normalarına nisbətən hüquqi şüurun daha dərin səviyyəsidir. Normalar yalnız dəyərlərin aşkar edilməsi və ifadəsi üsuludur.

**Elmi tədqiqat işi 12.** "KİV-in ictimai şüura  təsirinin spesifik xüsusiyyətləri".

**Elmi tədqiqat işi üzrə çalışan əməkdaş:** b\m. Azər Allahverdiyev.

Müasir dövrdə kütləvi informasiya vasitələri ictimai şüura, onun ayrı-ayrı formalarına ən müxtəlif formalarda təsir göstərmək imkanına malikdir. Tədqiqat işində kütləvi informasiya vasitələri anlayışının məzmunu açıqlanır, kütləvi informasiya vasitələrinin ictimai şüura təsirinin əsas istiqamətləri təhlil olunur. Kütləvi informasiya vasitələrinin ictimai şüuru manipulyasiya etmək üsulları nəzərdən keçirilir. Kütləvi informasiya vasitələri və ictimai şüurun qarşılıqlı təsiri məsələləri araşdırılır.

**Aktuallığı:** Müasir dövrdə kütləvi informasiya vasitələri cəmiyyətin informasiyalaşdırılması vasitəsindən ictimai şüurun formalaşmasında ən mühüm amilə çevrilir. Kütləvi informasiya vasitələrinin ictimai şüuru manipulyasiya etməsi meyli güclənir. Bu baxımdan KİV-in ictimai şüurun formalaşmasına təsiri xüsusiyyətlərinin araşdırılması önəmlidir.
**Məqsədi:** Tədqiqatın məqsədi kütləvi informasiya vasitələrinin ictimai şüurun formalaşmasına təsirinin spesifik xüsusiyyətlərini araşdırmaqdır.
**Alınmış nəticələr:** Müasir dövrdə kütləvi informasiya vasitələri ictimai şüurun formalaşmasında mühüm amil kimi çıxış edir. Kütləvi informasiya vasitələri reallığı təhrif etməklə ictimai şüurun formalaşmasına əks təsir göstərmək, onu yanlış istiqamətə yönləndirmək potensialına malikdir. Kütləvi informasiya vasitələri stereotiplərin, ictimai rəyin formalaşmasına təsir edərək ictimai şüuru dəyişir.

**Elmi tədqiqat işi 13.** “İnformasiya cəmiyyətinin ictimai şüurunda antropoloji böhran”.
**Elmi tədqiqat işi üzrə çalışan əməkdaş:** f.ü.f.d., dos. Nərgiz Məcidova.
Elmi işdə antropolji böhranın ictimai şüurun stereotiplərinin, düşüncə və fəaliyyətin tənzimləyici prinsiplərinin kökündən dəyişməsinə kömək etdiyini göstərilir. Sosial reallıqda genişmiqyaslı və heç də həmişə konstruktiv dəyişikliklər ictimai şüurda öz qaçılmaz ifadəsini tapır. Eyni zamanada, o, “yeni bilikləri” reallığın artıq qurulmuş obrazları, təsvirləri, dəyər istiqamətləri, uyğunlaşma strategiyaları, o cümlədən psixi və irrasional (şüursuz) səviyyəsində sabitlənmiş obrazlarla birləşdirir. Bu cür sintezin və inteqrasiyaların nəticəsi çox vaxt böhranlı, təhrif olunmuş formada olur ki, bu da sosial-mədəni dinamika haqqında obyektiv biliklərin formalaşmasını çətinləşdirir. Bu baxımdan, sosial transformasiyların onların sosial-mədəni əsaslarını, tendensiyalarını və nəticələrini nəzərə almaqla təhlili günümüzün aktual tələbidir.
Müasir mərhələdə informasiya cəmiyyətinin inkişafı onun mövcudluğunun siyasi, iqtisadi, mədəni və antropoloji səviyyələrində dərin struktur dəyişiklikləri ilə müşayiət olunur. Bu dəyişikliklər cəmiyyətin və insanın mövcudluğunun ənənəvi əsaslarının dağıdılması hesabına konkret olaraq yeni sivilizasiya kontekstində baş verdiyi üçün ictimai inkişafın əvvəlki mərhələlərində baş vermiş bütün transformasiyalardan keyfiyyətcə fərqlənir. Bu gün dünyada dərin ideoloji böhran özünü büruzə verir ki, bu da son dövrlərə qədər davamlı fəaliyyət göstərən sosial-antropoloji inkişafın mədəni, dəyər və identifikasiya tənzimləyicilərinin itirilməsi və bunun müqabilində postmodern şəraitdə formalaşan proseslər qəbuledilməzdir. Bu şəraitdə ictimai şüur sosial inkişafı inteqral şəkildə ifadə edən və tənzimləyən mənəvi fenomen kimi özünəməxsus epistomegenik və tənzimləyici funksiyalarının dəyərsizləşməsini yaşayır.
Bu çevrilmələr varlığın atributlarının köklü dəyişməsi vəziyyətində vəziyyətində son dərəcə həssas bir varlıq olan insanda ayrılmaz təcəssümünü tapır. Antropologiyanın müasir versiyaları – təkamüldən ekzistensiala doğru “klassik insan”ın yoxa çıxmasını və yeni bir növün meydana çıxmasını bəyan edir. İnsan tarixin subyektindən obyektə, sivilizasiya dinamikasının qurbanına çevrilir ki, bu da dərin bir böhran ilə ifadə olunur. Ekzistensial böhran, onun özü ilə, başqası ilə, bütövlükdə dünya ilə mərkəzləşən əlaqələrində dəyişiklik fərdi

və ictimai şüurun qarşılıqlı təsirində disfunksiyaya səbəb olur. Beləliklə, bütün sosial-mədəni inkişaf sisteminin böhranından danışmaq olar. Yaranan tarixi şəraitdə informasiya cəmiyyətində ictimai şüurun transformasiyasının əsas aspektlərinin sosial-fəlsəfi dərkinin aktuallığı artır.
**Aktuallığı:** Elmi iş antropoloji böhranın ictimai şüurun stereotiplərinin, düçüncə və fəaliyyətin tənzimləyici prinsiplərinin kökündən dəyişməsinə kömək etdiyini göstərir. Bu baxımdan, sosial transformasiyaların onların sosial-mədəni əsaslarını, tendensiyalarını və nəticələrini nəzərə almaqla təhlili günümüzün aktual tələbidir.
**Məqsədi:** Elmi işin əsas məqsədin informasiya cəmiyyətində ictimai şüurdakı antropoloji böhranı təhlil etməkdir.
**Alınmış nəticələr:** Antropoloji böhranın həlli insan, cəmiyyət və təbiət arasında harmoniya yaratmaqdan asılıdır. İnformasiya cəmiyyətində ictimai şüurun transformasiyası probleminin hərtərəfli təhlili aparılır, çünki bu problem aktualdır və dialektik, fəlsəfi-antropoloji, sivilizasiya və digər yanaşmalar çərçivəsində əlavə nəzərdən keçirilməsini tələb edir.

**Elmi tədqiqat işi 14.** "İdeoloji sistemlərdə rasional və irrasional cəhətlər".
**Elmi tədqiqat işi üzrə çalışan əməkdaş:** f.ü.f.d., müəl. Nəzakət Kərimova.
İctimai şüurun ayrılmaz tərəflərini təşkil edən ictimai psixologiya və ideologiya bir-biri ilə sıx qarşılıqlı əlaqədədir. Onlar arasındakı əlaqəni aşkara çıxararkən əksər tədqiqatçılar üstünlüyü ideologiyaya verir, ictimai psixologiyaya münasibətdə onun aktiv rol oynadığını, ictimai psixologiyanın isə ideologiyaya münasibətdə nisbi müstəqilliyə malik olduğunu qeyd edirlər. Bu problemə həsr edilmiş elmi ədəbiyyatda ictimai psixologiyadan daha çox ideologiyanın şərhinə üstünlük verilməsi birincinin mürəkkəb təbiətə malik olması və onu öyrənməyin çətinliyi ilə əlaqələndirilir. Həmçinin bildirilir ki, ictimai psixologiya ideologiyadan kənarda, onun təsiri olmadan kortəbii surətdə formalaşdıqda onun ideologiyaya aktiv təsir imkanları azalır.
Yaranma tarixinə, formalaşma mexanizminə görə ictimai psixologiya ideologiyadan fərqlənsə də, onlar arasında bir sıra ümumi cəhətlər vardır. Əvvəla, həm ictimai psixologiya, həm də ideologiya mənəvi həyat hadisəsi olaraq insanların sosial mənafe və tələbatlarını əks etdirir, onların mənəvi aləminin formalaşmasına güclü təsir göstərirlər.
